*N.Əsədullayeva. Azərbaycan ədəbiyyatında vətəndaş müharibəsi ideoloji kontekstdə // Əlyazmalar yanmır, 2022, № 1 (14), s. 54-60.*

UOT: 82-3.512.162

**Nuranə Əsədullayeva**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi*
*Bakı ş., İstiqlaliyyət küç. 53*
*e-mail: x_nura_x@list.ru*

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏTƏNDAŞ MÜHARİBƏSİ İDEOLOJİ KONTEKSTDƏ

**Xülasə**

Keçən əsrin əvvəllərindən başlanan inqilabi vüsət Rusiyada 1917-ci il inqilabı ilə başa çatdı. Rusiyada yaranmış bir çox əsərlərdə bu proses bədii əsərlərin əsas mövzusuna çevrildi. M.Qorkinin "Ana" romanı xalq arasında çox yayılaraq bu mövzuda yaranacaq əsərlər üçün böyük bir stimul rolu oynadı. Rusiyada inqilabın qalib gəlməsi ilə bu proses davam etdi və yeni əsərlər yaranmağa başladı. Birinci Dünya müharibəsindən sonra başlayan vətəndaş müharibəsi də ədəbiyyata öz təsirini göstərdi.

Azərbaycan ədəbiyyatında bu zəngin təcrübədən geniş istifadə olunmamışdır. Fikrimizcə, bunun əsas səbəbi Azərbaycanda vətəndaş müharibəsinin olmaması, bu mövzunun milli ədəbi mühit üçün yad mövzu olması idi. Bu yeni təmayül sonralar çoxalmasına və şablonçuluğa səbəb olmasına baxmayaraq, ilk dövrlərdə qəhrəmanları, vətəndaşlıq motivləri, qəhrəmanlarının həqiqət, doğruçuluq axtarışları ilə yeni görünür, təsvir edilən qəhrəmanların xarakteri dialektik inkişafda verilirdi. Əsərlərdəki yeni estetik ideal və yeni qəhrəmanlar yeni insanın estetik idealını ifadə edir, ictimai-siyasi proseslərə nüfuz edirdi.

***Açar sözlər:*** *30-cu illər, ədəbiyyat, vətəndaş müharibəsi, ideoloji kontekst*

## Giriş

*30-cu illər Azərbaycan ədəbiyyatında əsas mövzulardan biri olaraq yaxın dövr hadisələrinin təsviri başlıca yer tuturdu. Rus ədəbiyyatında işlənən bu mövzular və tendensiyalar tədricən digər respublikaların ədəbiyyatlarına, o cümlədən Azərbaycan ədəbiyyatına da öz təsirini göstərmişdir. Tədqiqatçı Leyla Əliyeva bu mövzu və qəhrəman yaxınlığını nəzərdə tutaraq yazır: "Azərbaycan yazıçılarını Qorkinin, Şoloxovun, A.Tolstoyun təsvir etdiyi inqilab qəhrəmanlarının vətəndaşlıq hissləri və yüksək insani keyfiyyətləri cəlb edirdi. Əsərlərdə yeni estetik ideal nəzərə çarpırdı, təsvir edilən qəhrəmanların xarakteri inqilabi inkişafda*

*verilir, insanın müsbət keyfiyyətləri romantik ruhla aşılanırdı. Bu romanlarda “kiçik insan”, onun mənəvi dəyişməsi və yeni həyat uğrunda mübarizəsi başlıca yer tuturdu” [4, s. 54]. Tədqiqatçının qeyd etdiyi kimi, bu dövrdə Azərbaycan nəsrində M.Qorki, A.Tolstoy və M.Şoloxov ənənələri üstünlük təşkil edirdi. Lakin bir sıra məsələlər var idi ki, Azərbaycan ədəbiyyatında bu elementlər yad təsiri bağışlayırdı. Belə ki, Azərbaycanda inqilabi proses Rusiyadakı kimi olmamış, xaraktercə, inkişaf dinamikasına görə tamamilə fərqli səciyyə daşımışdır. İkinci bir tərəfdən, Azərbaycanda vətəndaş müharibəsi baş verməmişdir. Bu mövzu Rus ədəbiyyatından milli bədii düşüncəyə desant kimi atılmış və bir müddət dövriyyədə olmuşdur. Bundan başqa bu əsərlərin konfliktinin mərkəzində duran qəhrəmanların həyat yolunun dialektik inkişafda verilməsi (kənddən gəlməsi, şəhərdə inqilabi proseslərə qoşulması, təfəkkür dəyişiminin baş verməsi və s.) məsələləri də hazır resept kimi verilirdi. Əgər qəhrəman dialektik inkişafda verilmirdisə, bu obraz qeyri-bitkin hesab olunurdu. Bu cür romanların başqa bir xüsusiyyəti isə ondan ibarət idi ki, inqilabi proses xalqlar dostluğu kontekstində baş verirdi. Yəni azərbaycanlılar mübarizəni başqa millətlərlə bir yerdə aparırdı; bu millətlər içərisində isə rus və ermənilərin obrazı çoxluq təşkil edirdi.*

20-ci illərdə T.Ş.Simürg, H.Nəzərli, B.Talıblı, S.Hüseynin yaradıcılığında inqilabi proseslərlə bağlı bəzi hekayələr yaransa da, epoxal hadisələr 30-cu illərin əvvəllərində yazılan romanlarda təsvir olunurdu. M.Cəlal, M.Hüseyn, S.Rəhimov, Ə.Vəliyev və başqalarının povest və romanlarında son otuz ilin hadisələri təsvir olunur, ictimai proseslərdə sinfi ziddiyyətlər və konfliktlər əks etdirilirdi. Bu mövzu və konfliktlər içərisində vətəndaş müharibəsi mövzusu və qarşı-qarşıya duran qüvvələrin təsvirinə geniş yer verilirdi. Aydındır ki, Azərbaycanda Rusiyadan fərqli olaraq vətəndaş müharibəsi olmamışdır. Lakin buna baxmayaraq, bu mövzu bir müddət ədəbiyyatımızda özünə yer etmişdir. Hətta bu məsələ ədəbiyyatşünaslığımız tərəfindən də qeyd edilmişdir: “Vətəndaş müharibəsi mövzusu 20-ci illər rus sovet ədəbiyyatında işləndiyi halda, Azərbaycan nəsri üçün tamamilə təzə idi. Mövzu nə qədər vacib olsa da, onun bədii həlli və işlənməsi bir o qədər çətin və mürəkkəb idi. Azərbaycan nəsrinin bu sahədə müəyyən təcrübəsi olmadığı kimi, qüvvətli ənənəsi də yox idi” [1, s. 136]. Buna görə də inqilabi proseslər və Cümhuriyyət dövründə ermənilərin burada törətdiyi qırğınlar bolşevik təbliğatı nəticəsində erməni-müsəlman qarşıdurması kontekstində vətəndaş müharibəsi olaraq qələmə verilirdi. Bu dövrdə baş verən hadisələrin ədəbiyyatımızda təsviri “realizmə sadiq qalmaq və siyasi aydınlıq cəhətdən Azərbaycan sovet nəsri həmin mövzunu müvəffəqiyyətlə həll edə bilmişdi” [1, s. 136] - kimi qələmə verilirdi.

Vətəndaş müharibəsi mövzusu, ilk dəfə yeni yaradıcılığa başlayan H.Nəzərli, T.Ş.Simürg, B.Talıblı, S.Hüseyn kimi yazıçıların 20-ci illər hekayələrində öz əksini tapdı, H.Nəzərlinin “Casusun yardımçısı”, “Nişanlı gözləri”, “Qara və qırmızı”, “Laçın”, “Satqın”, B.Talıblının “Qırx zopa”, T.Ş.Simürgün “Zərifə”, “Küləkli bir axşam”, S.Hüseynin “İki həyat arasında” və s. hekayələrində müxtəlif istiqamətlərdə təsvir olunmağa başladı. Bu hekayələrdə keçmiş tənqid olunur, müsavat hökuməti, yaxud qadın azadlığı problemlərinə, Qızıl ordunun gəlişi ilə istismarın yox olması, xalqın azadlığa çıxması, fəhlə-kəndli hökumətinin qurulması prosesinin təsvirinə üstünlük verilirdi. Lakin 20-ci illərin ortalarından başlayaraq vətəndaş müharibəsi problemi rus ədəbiyyatının təsiri ilə daha geniş yer tutmağa

başladı. Əbülhəsən, M.Hüseyn, Ə.Vəliyev, M.Cəlal, M.S.Ordubadi və başqalarının povest və romanlarında bu dövrdə baş vermiş inqilabi-tarixi proses əks etdirilməyə başladı.

Mehdi Hüseyn "Daşqın" əsəri ilə bu mövzuya geniş miqyasda ilk müraciət edən yazıçılardan oldu. Nəzərə alsaq ki, yazıçı bu əsərə qədər hekayələrində də bu mövzuya toxunmuşdur, o zaman yazıçının mövzunu həyat müşahidələrindən aldığını görmək olar. M.Hüseynin hələ bu əsərə qədər öz yaradıcılığının ilk illərində yazdığı "Əlli iki" (1929), "Studentlər" (1929), "Qayıtmadı" (129) hekayələrində vətəndaş müharibəsi mövzusuna müraciət etməsi uşaqlıq dövründə gördüyü hadisələrin onun yaddaşında dərin kök saldığına işarə idi. Məhz bu cəhətdən "Daşqın" əsərini bu hekayələrin davamı da hesab etmək olar.

Əsər 1931-ci ildə yazılmağa başlamış, ilk dəfə 1933-cü ildə nəşr olunmuş və hissə-hissə çap olunaraq 1935-ci ildə tamamlanmışdır. Cümhuriyyət dövrünün son, sovet hakimiyyətinin ilk illərini əhatə edən digər əsərlərdə olduğu kimi, burada da vətəndaş müharibəsi mövzusu şərti xarakter daşıyır. Söhbət 1919-20-ci illərdə Borçalı və Qazax mahalında cərəyan edən ictimai-siyasi hadisələr, partizan hərəkatı, qaçaqların onlarla birləşməsi, Qızıl ordunun onların köməyinə gəlməsi, ümumən sovet hakimiyyəti uğrunda mübarizədən gedir ki, bunu zənginləşdirən bir çox detallar vardır. Belə ki, M.Hüseyn Azərbaycanın Gürcüstanla sərhəd bölgəsində doğulmuş və uşaq vaxtlarında gördüyü hadisələrin canlı şahidi olmuşdur. Burada baş verən müəyyən toqquşmalar, eləcə də, Gürcüstanda sovet hökumətinin Azərbaycandan doqquz ay gec qurulması və bu müddətdə sərhəddəki proseslər vətəndaş müharibəsi kontekstində təsvir olunurdu. Həm müəllifin öz müşahidələri, həm də istinad etdiyi şahid ifadələri romanın canlı çıxmasına, toqquşmaların konfliktin mərkəzinə oturdulmasına imkan vermişdir.

"Daşqın" əsəri şəhərdə baş verən üsyan və döyüşlərin təsviri ilə başlayır. Şəhər və kənd yoxsullarının qubernator dəftərxanasına hücumu mövcud siyasi quruluşdakı bərabərsizliyin, haqsızlıq və hüquqsuzluğun nəticəsi olaraq göstərilir. Yazıçı kəndin varlıları Şirəli və Yolçunun tərcümeyi-halı kontekstində cəmiyyətdəki bərabərsizliyi ortaya çıxarır. Kənd sakinləri varlılara qarşı ayağa qalxmışlar, çünki, Şirəli və Yolçu kimi varlılar yaxşı həyat keçirdikləri halda, kasıbların güzəranı çətin və məşəqqətlidir. Sərxan kimi istedadlı oğlanlar ehtiyac üzündən məktəbi buraxaraq bir parça çörək dalınca getdiyi halda, Yolçunun oğlanları zabitlik məktəbində oxuyurlar. Ümumiyyətlə, əsərdə bir tərəfdə bəy və hampalar, varlılar, digər tərəfdə isə yoxsullar, kasıblar dayanır. Yazıçı ilk səhifələrdən "inqilab"dan əvvəlki həyatın yoxsullar üçün nə qədər dözülməz olduğunu bədii detallarla göstərir. Sərxan məktəbi buraxaraq şəhərə mis mədənlərində işləməyə gedir və burada yoxsulların ağır həyat şəraiti ilə yaxından tanış olur. Getdikcə o, bolşeviklərə qoşularaq varlılara, istismar dünyasına qarşı mübarizəyə başlayır. Tezliklə gənc Şirəli də Sərxanın partizan dəstəsinə qoşulur. O, anasının "Ay oğul, bu ağbirçək vaxtımda məni gözüyaşlı eləmə, mən yazığa rəhmin gəlsin...Bir yerdə otur, bu dünyanın dərdi sənə qalmayıb ki?" sözlərinə "Tutaq ki, mən getmədim, bəs kim gedəcək? Yenə istəyirsən ki, təzədən boynuyoğunlar gəlib bizim başımızda qoz sındırsınlar?" [5, s. 47], - deyə cavab verərək öz vətəndaş məsuliyyətini dərk edirdi. Sərxanla Şirəli birlikdə mübarizəyə başlayırlar. Yazıçı onların vuruşduğu qüvvələri ideoloji düşmən olaraq qələmə verir. İdeoloji cəbhə çox zaman ümumi şəkildə göstərilir. Yalnız Yolçunun ailəsi və Şəhriyar bəy müəyyən dərəcədə obraz səviyyəsinə qalxır. Yolçu tipik bir hampadır, Şəhriyar bəy isə ağalığını qorumağa çalışır, lakin onu bacarmır. Ancaq getdikcə dərk edir ki, ağalığı daha

onun əlindən çıxmaq üzrədir. Hər yerdə millət mənafeyindən çıxış edən Şəhriyar bəy üçün millət yalnız bir bəhanədir. O, dövranının artıq başa çatdığını dərk edən zaman Şəmsinin çağırışına cavab olaraq bir qüvvə toplayır. Hətta kömək üçün qonşu Gürcüstanın menşeviklərinə də müraciət edir və bununla da, necə olur-olsun hakimiyyəti əlində saxlamaq istəyir. O, əmin idi ki, hərbi təhsili, təcrübə və savadı Sərxanın dəstəsini məhv etməyə yetəcək. Əsərin birinci hissəsinin sonunda Sərxanın partizan mübarizəsində həlak olmasından sonra onu sevən Mahirə Qızıl orduya yazılır. Əvvəlcə Mahirə əsgərlərə yardım edir, yaralıları döyüşdən çıxararaq onların həyatını xilas edir, sonra da əsgərlərin hörmətini qazanaraq onların sıralarına qoşulur.

"Daşqın" romanında qaçaq Əmrah obrazı da yaradılmışdır. Əmrah vaxtilə çar Rusiyası tərəfindən Sibirə sürgün edilmiş və dövrünün ən məşhur qaçaqlarından biri olmuşdur. Lakin Sibir sürgünü onun dəyanətini və mərdliyini sındıra bilməmiş, oradan qayıtdıqdan sonra da mübarizəsini davam etdirmiş, Şəhriyar bəy tərəfindən qətlə yetirilmiş gənc oğlu İsrafilin qisasını almaq üçün Sərxangilin dəstəsinə qoşulmuşdur. Romanda bolşeviklərlə gürcü menşeviklərinin mübarizəsinə də geniş yer verilmiş və menşeviklərin Qazağın varlılarına dəstək verməsini müəllif siniflər mübarizəsi kimi göstərmişdir. Ümumiyyətlə, yazıçı əsərdə iki ideoloji cəbhəni üz-üzə gətirir. Rəsul Rza əsərə ön sözündə yazırdı: "İki dünyanın diz-dizə gəldiyi böyük günlərin yaralı səhifələri bu gün belə kimsənin xatirindən çıxmamışdır. Bu günlərin dəhşətli gurultularına qarışaraq sovrulan dumanların içində itən, sızılan qəhrəmanlar Azərbaycan əməkçilərinin xatirindən silinməyəcəkdir" [7, s. 5]. "Ədəbiyyat qəzeti" isə baş məqaləsində əsərdə əsas diqqəti vətəndaş müharibəsinin təsvirinə yönəldirdi: "Proletar hakimiyyətinin ilk illərində onun üzərinə basqın yapan, hər tərəfdən onlarca intervünsiyaçılara və ağ general bandalarına qarşı proletariatın əməkçi kütlələri ilə birlikdə apardığı kəskin mübarizəni, göstərdiyi şərəfli qəhrəmanlıqları, bəşəriyyətin tarixində misli görünməmiş bu böyük hadisələri inqilabın bu gənc nəslinə öyrətmək üçün əsas vasitələrdən biri vətəndaş müharibəsi tarixidir" [2, s. 1].

M.Hüseynin "Daşqın" əsəri vətəndaş müharibəsi mövzusuna həsr edilmiş ilk əsərlərdən olmaqla yanaşı, yazıçının da ilk qələm təcrübələrindən idi. Üstəlik 30-cu illərin əvvəllərində ədəbiyyatın ideoloji təzyiqlə üzləşməsi bu əsərdə özünü daha çox büruzə verirdi. Hər şeydən əvvəl, əsərdə sanki bir sxematiklik var idi. Bolşevizm ruhu obrazların üzərində öz təsirini göstərirdi. Hətta əsərin bir yerində dünya proletarlarının dilində səslənən məşhur "Beynəlmiləl" şeirindən misralar da səsləndirilir. Əsərdəki xalqlar dostluğu ideyası, azərbaycanlı və erməni həmrəyliyi ideyası da dövrün ideologiyasından irəli gəlirdi. Görünür, əsərin həddən artıq ideoloji olmasına görə M.Hüseyn bu əsərini sonrakı nəşrlərdə "Seçilmiş əsərləri"nə daxil etməmişdir.

M.Hüseyn "Şair" kino-dramında da yenidən bu mövzuya qayıdır. Əsərdə bolşeviklər kommunasının məğlubiyyətindən sonrakı dövrə müraciət olunur. Bakıya gələn Fərhad Sibir sürgünündə yoldaşlıq etdiyi şair Niyazla görüşür. Lakin söhbətlərindən belə məlum olur ki, vaxtilə birgə mübarizə aparan dostların yolları indi ayrılmışdır. Bu, tarixi şəraitə tamamilə uyğun idi. Çünki dostların hər ikisi Azərbaycanın istiqlalı uğrunda çalışsa da, mübarizə yolları ayrı idi. Yazıçı Niyazla Fərhadın söhbətində cəbhələri müəyyən edir. Buradan məlum olur ki, Niyaz vaxtilə milli hökuməti dəstəkləmişdir. Əslində bu, bir ziyalı mövqeyi idi. Bunu onun Fərhada "Mən müsavatçı deyiləm, dostum... Mən yenə də həmin Niyazam. Mən yenə

də xalqımın səadəti yolunda canımdan keçməyə hazıram...Məni yalnız ölüm ondan ayıra bilər" [6, s. 65], - deyə özünün milli mövqeyini bir daha bəyan edir. Fərhad Hacı Ağayevin "fitnəkarlığından" danışarkən şair onu müdafiə edərək deyir: "Ağayev büsbütün tanınmaz olub... Məktəb açır, teatr tikdirir, Berlinə, Parijə tələbələr yollayır: Milli hökumətə əlindən gələn qədər kömək edir" [6, s. 64]. Fərhadın fikrincə, gündə bir xarici ağaya satılan Hacı Ağayev kimi milyonerlər qardaş qırğını hazırlayırlar. Buradan görünür ki, yazıçı Hacı Ağayev obrazı ilə xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevi nəzərdə tutmuşdur. Yazıçı Niyazın getdikcə fikrini dəyişərək bolşeviklərə yönəldiyini və bununla da onun milli hökuməti dəstəkləməsini bir aldanış olaraq qələmə vermək istəyir. Onu bu mövqeyə gətirən müəyyən hadisələr baş vermişdir. Bu hadisələri həmin dövrdə sovet təbliğat maşınının tezisləri də hesab etmək olar. Odur ki, Niyaz bu cəbhədən uzaqlaşaraq bolşeviklərin bayrağı altında mübarizə aparır. Yazıçı bununla Cümhuriyyət dövründəki özbaşınalığı və qanunsuzluğu göstərmək istəmiş, lakin həmin dövrü müsavat hakimiyyəti kimi təsvir etmişdir. Bu cür təqdimat proletar hakimiyyəti dövründə əsas təbliğat vasitələrindən biri idi. Yenə həmin təbliğat vasitələrinin əsas tezislərindən biri bu dövrdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı yaddan çıxarmaq üçün onun müsavat-daşnakların mübarizəsi olaraq təsbit edilməsi idi.

"Şair" kinodramından sonra M.Hüseyn "Komissar" povestində də yenidən həmin dövrə qayıdaraq 26 komissardan biri Məşədi Əzizbəyovun obrazını yaradır. Lakin ayrı-ayrı hekayələrdən ibarət olan bu əsərdə müəllif əsas diqqəti yalnız Məşədi Əzizbəyovun obrazını yaratmağa yönəltmiş, ideoloji cəbhədəki obrazların yaranmasına fikir verməmişdir. Nəticədə əsər birtərəfli çıxmış, Əzizbəyovun özünün də mübarizəsi sönük təsvir olunmuşdur. Tədqiqatçı Y.Seyidov da bu fikirdədir ki: "Komissar"ın nöqsanlarından danışarkən, hər şeydən əvvəl, materialın birtərəfli seçildiyini, Əzizbəyovun hiyləgər, təcrübəli düşmənlə təkbətək tutuşmada həmişə asanlıqla qalib gəldiyini göstərmək lazımdır" [8, s. 67]. Lakin fikrimizcə, əsərin əsas nöqsanı tarixi əsər olmasına baxmayaraq, dövrün tarixini olduğu kimi əks etdirə bilməməsi idi. Çünki 26-ların mübarizəsi ilə milli-siyasi fikir ayrılığımız var idi. Milli qüvvələr müstəqillik, istiqlal uğrunda çalışsalar da, onlar Azərbaycanı çar Rusiyasının Cənubi Qafqazda yeritdiyi siyasətin davamı olaraq görürdü.

Əli Vəliyevin "Qışladan kəndə" hekayəsində və "Qəhrəman" romanında Azərbaycan əsgərinin obrazı yaradılır. Romanın baş qəhrəmanı Qəhrəman kənddə ictimai quruluşun "tör-töküntüləri" ilə amansızcasına mübarizə aparan yeni gəncliyin rəmzi obrazı kimi mənalanır. Romanda təsvir olunan hadisələr konkret olaraq Birinci Dünya müharibəsi dövründə Azərbaycanın dağlıq rayonlarının birini əks etdirir. Qəhrəman Cümhuriyyətdən əvvəlki kənddə çarizm üsul-idarəsinə qarşı mübarizəyə başlayır. Kənd adamlarının ağır güzəranı, ayrı-ayrı adamların azğınlığı, varlılarla yoxsullar arasında gedən mübarizə konfliktin əsasında durur. Yoxsul kəndli Daşdəmirin ailəsinin başına gətirilən faciələr, Xoşqədəmin vəhşicəsinə qaçırılması və s. bu ailənin oğlu Qəhrəmanın vətəndən didərgin düşməsinə səbəb olur. Bir müddət Orta Asiyada çətinliklə yaşayan Qəhrəman böyük bir siyasi yol keçərək kəndə qayıdır və sovet hökumətinin fəallarından biri olaraq buradakı sinfi düşmənlərə qarşı mübarizə aparır. Ədəbiyyatşünas Məsud Əlioğlu qəhrəmanın bu mübarizəsi haqqında yazırdı: "Sinfi düşmənlərlə mübarizə şüarı altında meydana atılan həmin solçu "kommunistlərin" hərəkəti nəticəsində çox zaman qəlbən təmiz insanlar süni surətdə düşmənə çevrilirdilər" [3, s. 191]. Belə adamlardan biri Qəhrəmanın uşaqlıq dostu Merac idi. Yazıçı bu iki obrazın

simasında baş verən ictimai-siyasi hadisələrin ziddiyyətliliyini reallıqla oxucuya çatdırır. Yazıçı Qəhrəmanın əksinə olaraq Meracın səhv yola düşməsini göstərir. Əslində isə Meracın Qəhrəmanın getdiyi yolla getməməsinin əsas səbəbi baş verən gerçəklikləri dərindən dərk etməsi və kommunistlərin özbaşınalıqlarını qəbul edə bilməməsindən irəli gəlirdi. Onun gördükləri və çıxardığı nəticə həyatda hansı qüvvənin daha doğru olduğunu müəyyən etməsində çətinlik yaradırdı. Kommunistlərin özbaşına hərəkət etmələri və həddən artıq sərt tədbirlər həyata keçirmələri onu iki yol ayrıcından birini seçməsinə, mühafizəkar qüvvələrə qoşulmasına şərait yaratdı. Deməliyik ki, Merac 20-ci illərdə yaranan və sovet hökumətinin ilk ideoloji düşmən obrazı kimi formalaşan obrazlardandır. Lakin "Qəhrəman" romanında vətəndaş müharibəsi yalnız qəhrəmanın keçib gəldiyi yol kontekstində göstərilmiş, əsasən inqilabdan sonrakı dövr təsvir olunmuşdur.

**Nəticə**

*Ümumiyyətlə, 20-30-cu illər ədəbiyyatında vətəndaş müharibəsinə həsr edilən əsərlər bir qədər çoxluq təşkil edir. Bu, hər şeydən əvvəl, dövrün ideoloji tələblərindən irəli gəlirdi. Bu əsərlərin əsas mövzusu "inqilab"dan əvvəl Azərbaycanda gedən proseslərin təsvirindən ibarət olurdu. Bu istiqamətdə qəhrəmanın keçdiyi yol onu ictimai-siyasi hadisələrin mərkəzinə salır, burada əsl kommunist, ya da komsomolçu kimi mətinləşirdi. Həmin dövrün hadisələrinin ruhunu da məhz bu əsərlərdəki təsvirlərdən və obrazlardan öyrənmək mümkündür. Bu cəhətdən vətəndaş müharibəsinə həsr edilmiş əsərlərdəki ideoloji meyilləri araşdırmaq, onlara yenidən qiymət vermək lazım gəlir.*

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan sovet ədəbiyyatı tarixi. 2 cilddə, I c., Bakı: Elm, 1967
2. Azərbaycanda vətəndaş müharibəsinin tarixini yaradalım (baş məqalə). Ədəbiyyat qəzeti, 1935, 23 aprel
3. Əlioğlu M. Ədəbiyyatda yeni insan. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1964, 222 s.
4. Əliyeva L. İnqilabi tarixi romanlarımızda Qorki ənənələri. Ulduz, 1985, №11, s. 53-56
5. Mehdi H. Daşqın. I hissə, Bakı, Azərnəşr, 1934, 146 s.
6. Mehdi H. Şair (kino-dram). Revolyusiya və kultura. 1939, №1-2, s. 25-69.
7. Rza R. Ön söz// Mehdi H. Daşıqn. I hissə, Bakı, Azərnəşr, 1934, s.3-5
8. Seyidov Y. Mehdi Hüseynin yaradıcılıq yolu. Bakı, Elm, 1966, 252 s.

**Nurana Asadullayeva**

**Civil war in Azerbaijani literature in ideological context**

The revolutionary movement that began at the beginning of the last century ended with the 1917 revolution in Russia. In many literary works created in Russia, this process has become the main topic of art works. M. Gorky's novel "Mother" became very popular among

people and influenced a number of works created on this topic. With the victory of the revolution in Russia, this process continued and new literary works began to appear. Civil war, which began after the First World War, also had an impact on literature.

This rich experience has not been widely used in Azerbaijani literature. By our opinion, the main reason for this was the lack of civil war in Azerbaijan and that's why this topic was not developed in national literature. Although this new tendency later led to formation of stereotypes, in the beginning it seemed full with new images and motives. That time there was created the new aesthetic ideal and a wide range of new heroes expressing the aesthetic ideal of the new era.

***Key words:*** *literature of 30-th, civil war, ideological context*

Akademik **Rafael Hüseynov** tərəfindən çapa tövsiyə olunmuşdur.